

# QANLA SUVARILAN AĞAC

**(Povestdən hissələr)**

*"Azadlıq ağacı qanla suvarılmasa, çiçək açıb bar verməz".*

*Sen Jüst*
*Fransa inqilabının məşhur xadimi*

*Əlövsət BƏŞİRLİ*

**(əvvəli ötən şənbə sayımızda)**

O, əsəbi halda əllərini yellədi. Mən öz fikrimi bildirdim:

**- Bələləri həm də düşmən dəyirmanına su tökürlər...**

Elgünəşin əsəbdən səsi titrədi:

**- Bu ona bənzəyir ki, nankor övlad öz ata-anasını, əsil-nəcabətini danır.**

Birdən cib telefonum zəng çaldı. Dürdanə idi. Səsindən hiss etdim ki, narahatdır. Dedim ki, prezident aparatında söhbətdən sonra Elgünəşlə bulvara çıxmışıq. Elə bil daha da həyəcanlandı. "Bu qaranlıqda nə vacibdir, tez evə gəlin" dedi.

Elə bu dəm Elgünəşin cib telefonu səsləndi. O, sakitcə qulaq asıb, mənə üz tutdu:

**- Elə bil evdəkilər sözü bir yerə qoyublar, - dedi, - görəsən nə olub?**

**- Nədənsə biz sarıdan narahatdırlar.**

Ətraf qaranlığa büründükcə dənizkənarı parkda istirahət edənlərin də sayı azalırdı. Bu, məni təəccübləndirirdi. Həmişə, xüsusilə bürkülü yay axşamları bulvarda adam əlindən tərpənmək olmurdu. İndi isə adamlar evə tələsir, qaranlıqda qalmaq istəmirdilər. Niyə, nə üçün? Elgünəş elə bil fikrimi gözlərimdən oxudu.

**- Son vaxtlar axşam düşən kimi şəhərdə əl-ayaq çəkilir. Bakı gecələri təravətini itirir elə bil.**

**- Ona görə ki, şəhəri gecələr nura boyayan, çıraqban edən işıqlar yanmır. Bir dön arxaya bax, vaxtilə şəninə nəğmələr qoşulan Bakı indi zülmət içindədir. Təkcə bulvarın işıqları yanır. Bir azdan bunlar da sönəcək, göz-gözü görməyəcək.**

**- Odur ki, qaş qaralan kimi adamlar evlərinə tələsir, sanki təhlükədən qaçırlar. Axı, eşidirlər, gecələr nələr baş verir.**

**- Görünür evdəkilər də buna görə narahatdırlar.**

**- Tək buna görə yox. Ürəyimə damıb ki, yenə zəng eləyib hədələyiblər. Evdəkilər neyləsin axı...**

...Evə çatan kimi Dürdanə xəbər verdi ki, yenə zəng eləyib ağızlarına gələni deyiblər.

"Kişinin səsi yuxarılardan gəlir, qaramıza deyinir, indi də dostuyla bulvarı seyrə çıxıb, - deyə qalın səs elə salıb, məsxərəyə qoymuş, sonra isə səsinin tonunu artıraraq hədələmişdi, - ona de, aglını başına yığıb cızma-qarasına nöqtə qoysun, olmasa özünə nöqtə qoyulacaq, göndəriləcək o dünyanın bulvarına, ha, ha, ha".

Dürdanə nigaran baxışlarını gözlərimə zillədi. Başını sinəmə qoyub ağlamsınaraq yalvardı:

Qurban olum, özünü gözlə. Bunlar qan-qan deyirlər.

Mən ona təsəlli verib zahirdə özümü toxtaq, sakit göstərməyə çalışsam da, içim od tutub yanırdı, ürəyim dözmür, sinəmdə quş kimi çırpınırdı. Başımın ağrısından gözlərimi aça bilmirdim. Az sonra yerimə girib özümü yatmış kimi göstərsəm də, yuxum ərşə çəkilmişdi...

Gecənin zülmətində bir həqiqət mənə gün kimi aydın oldu: bizi hədələyənlərin arxasında telefonda danışanın ağzından qaçırdığı "yuxarı" durmuşdu. Deməli, indiyə qədər baş verən siyasi qətllərin, cinayətlərin təşkilatçısı da yuxarı - mərkəz idi: vəzifələrindən dördəlli yapışıb, var-dövləti itirmək qorxusundan hər cür cinayətdən çəkinməyənlər! Bu dəhşəti törədənlərin, müxtəlif bəhanələrlə maskalananların mənfur sifətlərini yuxusu qaçmış gözlərimlə gecənin zülmətində sanki aydın görürdüm...

Ertəsi gün Elgünəşlə bu barədə söhbətimiz oldu.

**- Gecəyarı bizə də zəng elədilər, - dedi, - dəstəyi götürdüm. "Hə, yata bilmirsən? Xanımına demişik, özün də aç qulağını eşit. Ağlını başına yığ, cızma-qaralarına nöqtə qoy. Böyüklərin sözünə bax, məsləhətinə qulaq as. Onda rahat yatarsan. Yoxsa o dünyalıq olacaqsan".**

Elgünəş alnını ovuşdurub:

Səs mənə tanış gəldi, - dedi, - bilərəkdən boğuq, xırıltılı danışsa da, tanıdım. Yuxarıda böyük rütbə veriblər ona. Əlinin altında quldur dəstəsi əmrinə müntəzirdir. O da yuxarının göstərişinə bənddir.

Susub fikrə getdi. Yol çəkən gözləri mənə zilləndi:

**- Sən haqlısan. Bu natəmiz əməllərin təşkilatçıları elə bil pərdə arxasında gizlənib maskalanıblar. Ona görə də cinayətlərin üstü açılmır. Nə qədər adam girov götürərlər, qətllər törədərlər? Zəng edirlər pullu, varlı ataya ki, gözünün ağı-qarası tək oğlun bizdədir. Bu qədər verməlisən, səsini də çıxarmamalısan. Vay onda düşür ki, deyilən məbləğ vaxtında çatdırılmaya, ya deyiləndən əskik ola, ya da sirr açıla, səs-küy qopa! Başkəsənlər elə qəddarlıq eləyirlər ki, başqalarına görk olsun. Müsibət ondadır ki, yuxarılar, güc qurumları özlərini bilməzliyə, görməzliyə vururlar, üstəlik paylarını alırlar.**

Mən matı-qutu çəkilmiş halda:

**- Dəhşətdir, - dedim.**

**- Yuxarılar üçün ən dəhşətlisi bu sirrin açılmasıdır. Ona görə də zəng elətdirib hədələyirlər, arvad-uşağı qorxudurlar ki, bu sirr mətbuata sızmasın. Onlar cızmaqara deyəndə buna eyham vururlar. Adam odla su arasında qalır: yazım, necə yazım, yazmayım necə yazmayım?**

**- Aşıq demişkən, desəm öldürərlər, deməsəm ölləm.**

**Elgünəş acı-acı gülümsündü:**

**- Hər iki halda sonu ölümdür, - dedi, mənim fikrimcə, həqiqəti deməliyik, nəyin bahasına olur olsun. Ancaq hələ tələsməyək, görək yuxarıdakı söhbətimizin nəticəsi necə olacaq, hansı tədbirlər görüləcək. Əgər nəticəsi olmasa, silsilə məqalələrə özüm yekun vurub sözümü deyəcəyəm.**

***

Elgünəş ölkədə böyük əks-səda doğuran, yuxarıları narazı salan silsilə məqalələrlə bağlı yekun sözünü deməyə tələsmədi. Bu mövzuda redaksiyaya gələn oxucu məktublarını dərc etdirsə də, sonu gözləməyə üstünlük verdi. Həmişə olduğu kimi mənimlə dərdləşib ürəyini açdı: "Görək axırı nə olur? Yuxarıda qaldırdığımız məsələlər necə həll edilir".

O, adəti üzrə səbrlə, təmkinini pozmadan yuxarıdan cavab gözləyir, bu barədə oxuculara məlumat verməyi məqsədəuyğun sayırdı. Mərkəz isə susurdu. Elə bil qurbağa gölünə daş atmışdılar.

Nəhayət, baş redaktor özü zəng etdi, lakin qaneedici cavab almadı. Bir qədər gözlədikdən sonra silsilə yazılara yekun vuran sözünü dedi, çox tutarlı publisistik məqalə yazdı.

Məqalə sadə, səlis, oxunaqlı dildə, eyni zamanda çox sərt, kəskin publisistik üslubda qələmə alınmışdı. Mənim qənaətimə görə yalnız Elgünəş kimi böyük ürək, dərin bilik, dəmir iradə sahibi, elinə, torpağına bağlı, vətənini bütöv, xalqını azad görmək istəyən əsl insan - vətəndaş bu çox cəsarətli addımı ata bilərdi. Zamanın irəli sürdüyü suallara o, cavab verə bilərdi: "Biz hara gedirik? Bu yol bizi hara aparır? Zülmətə bürünən məşum gecədə sovet silahlı qüvvələrinin xalqın başına gətirdiyi müsibət ibrət dərsi olmadımı? "Azadlıq ağacı qanla suvarılmasa, çiçək açıb bar verməz" deyə əliyalın"kütləni qırğına verənlərin heç burnu da qanamadı. Onların azadlıq mübarizlərini meydanda ölüm püskürən tanklarla üzbəüz qoyub birdən-birə yoxa çıxmaları nə tez unuduldu? Zamanın sərt sınağında xalqa xəyanət edənlərə hakimiyyəti etibar etmək olarmı? Bu suallara xalq özü cavab verməli, seçkilərdə sözünü deyib, seçimini etməlidir! İqtidara ancaq seçki yolu ilə gəlmək olar. Od içində yanan cəbhədən arxaya gətirilən hərbi qüvvələrlə, hədə-qorxu, zor və terrorla yox! Diz çökdürülən xalq ayağa qalxmalı, öz sözünü deməli, seçimini etməlidir!"

Xülasəsi xarici radiostansiyaların efirində səslənən bu qeyri-adi məqalə ölkənin siyasi ab-havasına ciddi təsir göstərdi. Sanki tünd qara rəngli pərdəni qaldırdılar. Ölkənin özü boyda səhnəsi göründü. Pərdə arxasında gizlənənlər bu qeyri-adi səhnədə tamaşaçılarla üzbəüz qaldılar. Onların ciddi-cəhdlə xalqdan gizli saxlamağa çalışdıqları sirlər faş oldu.

"Dünya səhnədir, insanlar aktyor" kəlamı istər-istəməz yadıma düşdü. Ancaq bu başqa səhnə idi, aktyorları və tamaşaçıları da bambaşqa!...

Redaksiyaya məktubların ardı-arası kəsilmirdi, ikiləri hədələrdən, təhqirlərdən qorumaq üçün telefonu tez-tez xətdən ayırır, cib telefonlarını da seyrək işlədirdik. Biz sükut, dözülməz gərginlik içində idik...

***

***O dövlət çiçəklənərdi ki, onun ya hökmdarı filosof olsun, ya da filosofları hökmdar.***

**PLATON**

Baş redaktorun məqaləsindəki tənqidi yuxarılar inanılmaz sükutla qarşıladılar. Başları seçkilərə qarışmışdı. Etiraz edib hay-küy salmaq onlara xeyir vermirdi. Qulağımıza çatmışdı ki, bizimlə "haqq-hesab çəkməyi, məsələni çürütməyi" seçkilərdən sonraya saxlayıblar. Əvvəllər iqtidarla bir cəbhəbə olan, indi isə ayrı-ayrı partiyalara liderlik edən keçmiş dostlar isə siyasi rəqib kimi məqalədəki faktlara əsaslanıb onları tənqid atəşinə tuturdu. Seçkilərdə üstün gəlmək üçün nələr eləmirdilər? Hər cür saxtakarlığa əl atır, bir-birlərinə böhtanlar yağdırır, sabiq cəbhədaşlarını rüsvay edirdilər.

Belə bir gərgin vaxtda bu mövzuda felyeton yazdım. Qədim, çox ibrətamiz bir rəvayətdən istifadə etdim. Rəvayətə görə meşənin heyvanları bir yerə yığışıb özlərinə başçı seçmək istəyirlər. Əvvəl filin, ayının, canavarın namizədliyini müzakirə edirlər. Deyirlər fil meşədə bütün heyvanlardan nəhəng, güclü olsa da çox ləngidir. O, hərəkətə gəlib tərpənənəcən meşədə aləm bir-birinə qarışar. Özü də heç kimi saymır, yığıncağımızda da iştirak etmir. Ayı güclüdür, amma tənbəldir, qışda elə hey yatır. Hələ də ayılmayıb ki, seçkiyə qatılsın. Canavar faydasız, qəbiləbaz, qohumcanlıdır. Öz sürüsü ilə gəzir, ovunu təkcə onlarla bölüşdürür. Yenə sürüsü ilə harasa gedib, yığıncağımızı da saymayıb. Xeyli mübahisədən, müzakirədən sonra qərara alırlar ki, meşənin sultanı şir seçilsin. O, həm güclüdür, həm də çevik, zirək, eyni zamanda nisbətən ədalətlidir. Başçı cavan şir olmalıdır ki, bir hadisə baş verəndə özünü dərhal yetirə bilsin. Müxalifətdəkilər etiraz edirlər, deyirlər ki, cavanın təcrübəsi olmur. Naşı başçı səhvə yol verər. Bunun da çarəsini tapırlar. Deyirlər cavan başçıya məsləhətçi seçək. Bir quş uçuraq, hansı heyvanın başına qonsa, olsun məsləhətçi. Müxalifət yenə razılaşmır. Deyirlər ki, quş qorxusundan güclü heyvanın yox, zəifin başına qonar. Zəifdən də meşə sultanına məsləhətçi olmaz. Birdən uçub dovşanın başına qonar. O da canının hayına qalan heyvandır. Bir hadisə olan kimi göz qırpımında qaçıb aradan çıxacaq. Yox, əgər tülkünün başına qonsa, vay halımıza. Tülkü hiyləgərdir, yalnız özünü düşünür. Hiylə işlədib başçının qılığına girər, meşədə elə intriqa, vəlvələ salar ki, günümüzü göy əskiyə bükər.

**(ardı var)**